Filologiya üzrə fəlsəfə doktoru Fidan Nizaməddin qızının "Uşağın duası" ("Şərq-Qərb", 2020) adlı hekayələr toplusu Könül Aslanovanın redaktorluğu ilə çıxıb. Professor Qəzənfər Paşayev kitaba yazdığı dəyərli ön sözdə qeyd edir ki, "Anton Çexovun, Mir Cəlalın və Salam Qədirzadənin hekayələrindəki yığcamlığı Fidanın hekayələrində gördüm və bu məni çox sevindirdi". Daha sonra hekayələrin xarakterizəsini verən Qəzənfər müəllimin özü də fikirlərini yığcam və sərrast ifadə edib. Professorun aşağıdakı cümlələrində həm Fidan xanımın yazıçı ustalığı, həm də hekayəsinin məğzi və tutumu barədə aydın və müfəssəl, dolğun məlumat əksini tapıb:

"Fidanın çox yığcam "Uçurum" hekayəsi hegemon dövlətlərin Suriyada törətdikləri qanlı cinayət və haqsızlıqlarından bəhs edir. Hətta kiçik yaşlı uşaqlar da yerə-göyə sığmayan bu haqsızlığı görür. Ölüm ayağında olan uşağın can verməmişdən əvvəl dediyi sözlər insanı haldan çıxarır: "Hər şeyi Allaha deyəcəm".




Tutumu, dərin mənası ilə seçilən bu cümlə dünyaya ağalıq etmək iddiasında olan dövlətlərə qəflət yuxusundan ayılmaq üçün tutarlı mesajdır.

Real həyatdan bəhs edən bu kiçik hekayədən o da məlum olur ki, yazıçı dünya uşaq ədəbiyyatı ilə tanışdır. O, Heminqueyin "Uşaq ayaqqabıları satılır. Geyinilməyib" hekayəsini elə məqamda misal gətirir ki, heyran qalırsan". Bu cümlələr dan Nizaməddin qızının verdiyi fəlsəfi-poetik teoremdir. Maraqlı və düşündürücü ifadələrdir, adam fikrə dalıb, bu sözlərin ağuşunda haralara getmək istəyər... Əlbəttə ki, yetər ki, oxucu bu cümlələrin bədii-estetik yükünü qavraya bilsin...

"Günəşin ad günü" hekayəsi də uşaqları təsirləndirən-duyğusal bir aləmə aparan, maarifləndirən və həyata, dünyaya, təbiətə sevgi aşılayan bir əsərdir.

"Yer üzünün ən yaxın ulduzu olan Günəş Yerin cazibə qüvvəsindən iyirmi səkkiz dəfə çox qüvvəsi ilə bütün dünyaya sabahlar doğur. İnsanların həyatını aydınlaşdırır. Kütləsi Yerdən 333000 dəfə daha böyük olan Günəş hər gün min bir əziyyətlə doğularaq yer üzünə göz açır. Bütün planetlər Günəş ətrafında hərəkət edir. Günəşlə Ay Allahın əmri ilə növbələşərək insanlara işıq saçır. Günəş haqqında ilk elmi izahı verən qədim yunan alimi Anaksaqor Günəşin nəhəng yanan metal top olduğunu demişdir. Bəlkə, ona görə uşaqlar topla oynamağı sevirlər?! Rəngli şarlar üfürüb Günəşə sarı – göylərə uçururlar. III əsrdə yaşamış Eratosfen isə ilk dəfə Yerlə Günəş arasındakı məsafənin 149 milyon kilometr olduğunu hesablamışdır. Günəş öz istiliyi ilə yer üzündə yaşayan insanların ən doğma ulduzdur. Ürəyin insana ən yaxın və doğma orqan olduğu kimi... Allah yaratdığı hər bir möcüzəsini insanların açıq-aşkar görməsi üçün bəxş etmişdi yer üzünə

# ...Qayğıkeşlik istəyir

"Uçurum" hekayəsinin məzmununu da, yazıçı kimi Fidan Nizaməddin qızının gücünü də çox aydın şəkildə bizə çatdırır. Daha sonra Fidan xanımın kitaba ön söz kimi yazdığı "Uşaqların duası" adlı yazıdan müəllifin məramını anlayırıq:

"Dünyada üç amil vardır ki, səmimiyyətə təslim olur – sənət, sevgi və dua. Uşaq aləmi insanlığın ən səmimi mühitidir. "Biz ən gözəl şeyi təmənnasız olaraq sevirik" (N.Q.Çernışevski). Uşağın duası ən səmimi ayindir. İnanıram ki, bu gün bəşəriyyəti öz varlıqları, isti nəfəsləri, xoş arzuları ilə meridian yaradan ecazkar aləmin – uşaqların sevgi dolu duası xilas edəcək..."

Bu fikirlər gənc yazar Fidan xanımın "Dünyanı gözəllik xilas edəcək" fikrinə adekvat olaraq "Dünyanı uşaqların duası xilas edəcək" ideyasını irəli sürməsidir.

Qeyd edim ki, buradakı hekayələr mövzusunu real dünyamızdan götürür. Bu nöqteyi-nəzərdən yanaşdıqda kitabdakı hekayələri oçerk kimi də səciyyələndirmək mümkündür. Müəllif burdakı əsərlərini koronavirus pandemiyası dövrü ilə əlaqəli şəkildə uzlaşdırıb. "Uşaq evinin karantini", "Yardım", "Dalğa" kimi hekayələrdə birbaşa bu məsələ qabardılıb...

"Küsmək haqqım..." adlı əsərini Fidan xanım mütəəssiredici duyğulara köklənərək belə başlayır: "Göz yaşımın sayı qədərdir küsməklərim. Həyatdakı sonuncu əzizimin məni tək qoyması kimi küsürəm. Mən küsəndə özümü yer kürəsinin sonuncu insanı kimi hiss edirəm. Məktəbdə coğrafiya kabinetində müəllimin stolunun üzərindəki qlobusu fırladan bir uşağın şəhadət barmağı kimi tək-tənha qalıram. Sanki fırlatdıqca dünyanın harasındasa kimsə barmağımdan yapışaraq öz dünyasına aparacaq... Aparmayanda isə heç vaxt barışmayacaq uşaq kimi küsəcəm. Təəssüf ki, dünyanın heç yerindən mənim əlimdən tutan olmadığı üçün mən də küsmək məcburiyyətində qalıram. Çünki küsmək mənim xarakterimin bu həyatdan dönüş hissəsidir. Küsmək sönmüş vulkanın tüstüsüdür. Barışanda püskürəcək".

Deyərdim ki, bu hekayəni müəllif mənsur şeir stilində qələmə alıb. Fəlsəfə var, bədiiyyat var burada. "Küsmək diqqətsizlikdən doğulan bir körpədir. Həyata sevgi ilə qarışanların şirin qəmzəsidir". Bu fikirlər küsmək anlayışına yazıçı Fi- Günəşi. Tanrının əta etdiyi bu böyük nur işığı Günəşdən Aya, ulduzlara, insanların qəlb aləmlərinə ötürülərək yaşayır. Göylərə aparan yollar insanın uşaqlığı ilə yaradılmış qəlbindən keçir. İnsan böyüsə də, uşaqlıq hissləri həmişə yaşayır, xatırlanır" (səh.35). Hekayədən gətirdiyim bu bir abzaslıq sitatda həm elmi biliklər yer alıb, həm də ki, müəllifin bu bilgilərə yazıçı yanaşması. Günəşin öz istiliyi ilə insanlara ən doğma ulduz olduğunu təlqin edən müəllif paralel olaraq ürəyin insana ən yaxın və doğma orqan olduğunu müqayisə edir. Daha sonra isə Fidan xanım Günəşin həyat üçün nə dərəcədə vacib və əhəmiyyətli olması barədə fikirlər söyləyir. Sonra hekayənin adına və məzmununa uyğun olaraq yazır: "Bütün kainatı işıqlandıran günəş hər gün insanların həyatına doğulur. Beləliklə, açılan hər bir səhər günəşin doğum günüdür. Amma nədənsə bu doğum günü heç vaxt qeyd olunmur".

Fikir verin: nə qədər təsirli dərəcədə dünyaya qayğıkeş münasibət, təbiətə, günəşə sevgi duyğuları inikas olunub. Bununla müəllif bizə təmənnasız sevgi-işıq, həyat enerjisi bəxş edən günəşin qədrini bilməyi, atmosferin ozon qatının qorunmasını düşünməyi təbliğ edir. Eyni zamanda həm də uşaqlarda, bir sözlə, insanlarda bir-birlərinə qarşı münasibətlərdə günəş kimi işıqlı və isti(qanlı) olmaları tövsiyə olunur. Belə bir xoş duyğu və humanist amal Fidan Nizaməddin qızının bütün hekayələrinin əsas mövzu və məramını ifadə edir. "Uşağın duası"na həm də elə böyüklərin də qoşulmasını, uşaqlı-böyüklü hər bir kəsin humanist dəyərlər ətrafında birləşməsini təbliğ edir.

*Şakir*
Əlifoğlu

